İlk öncə nazirə və mərasimin digər iştirakçılarına tədris ocağında fəaliyyət göstərən «Məktəb Parlamenti» barədə məlumat verilib, bu qurumun şagirdlərə idarəetmə sahəsində bir sıra zəruri bacarıq və vərdişlərin aşılanmasında mühüm rol oynadığı vurğulanıb. Sonra ayrı-ayrı «nazirlər»in həyata keçirilmiş tədbirlər haqqında qısa təqdimat-çıxışları dinlənilib. Məktəbdə yeni yaradılmış «Kiçik Akademiya»nın prezidenti, 9 «b» sinif şagirdi İ.Rəsulzadə rəhbərlik etdiyi qurumun məqsəd və vəzifələrindən danışıb. Bildirib ki, «Kiçik Akademiya»nın yaradılması məktəblilərin təhsilə və elmə daha yaxından cəlb olunması, istedadlı şagirdlərin aşkar edilməsi, onların yaradıcılıq qabiliyyətlərinin və vərdişlərinin inkişaf etdirilməsinə xidmət edir. Təhsil naziri Misir Mərdanovu «Kiçik Akademiya»nın fəxri prezidenti seçdiklərini deyən İ.Rəsulzadə fəxri prezidentlik lentini nazirə təqdim edib.

Təhsil naziri Misir Mərdanov məktəblilərə minnətdarlığını bildirib, «Kiçik Akademiya»nın açılışı münasibəti ilə məktəbin müəllim və şagirdlərini təbrik edib. Nazir qədim tarixə və böyük ənənələrə malik 23 nömrəli məktəbə gəlişindən məmnunluq duyduğunu söyləyib, məktəbin ölkənin ən yaxşı ümumtəhsil müəssisələrindən biri olduğunu vurğulayıb. Təxminən 10 il əvvəl bu təhsil ocağında Azərbaycanın birinci xanımı, millət vəkili Mehriban Əliyevanın təşəbbüsü ilə qısa müddətdə yüksək səviyyədə əsaslı təmir işlərinin aparıldığını xatırladan Misir Mərdanov, Azərbaycanda məktəblərin əsaslı təmirinə məhz 23 nömrəli orta məktəbdən başlandığını söyləyib və təhsil işçiləri adından bu tədris ocağının məzunu Mehriban xanıma minnətdarlığını bildirib.

Nazir valideynlərin bu təhsil müəssisəsində yenidənqurma işlərinin aparılması xahişi ilə Azərbaycan Respublikasının Prezidentinə müraciət etdiyini və ölkə rəhbərinin bununla bağlı araşdırmalar aparılması barədə tapşırıq verdiyini nəzərə çatdırıb. Dövlət başçısının tapşırığına əsasən məktəbin yenidən qurulacağını vurğulayan təhsil naziri bunun tədris ocağının uğurlarının daha da artmasına şərait yaradacağına inamını ifadə edib.

Misir Mərdanov məktəbin idarəetməsində şagirdlərin bilavasitə iştirakına imkan yaradılmasını müsbət hal kimi dəyərləndirib, «Şagird Parlamenti»nin və «Kiçik Akademiya»nın işinə uğur arzulayıb.

Sonra «Kiçik Akademiya»nın xətti ilə məktəblilərin ayrı-ayrı fənlər üzrə hazırladıqları elmi işlər dinlənilərək dəyərləndirilib, fərqlənənlərə sertifikat və diplomlar təqdim olunub.